Azərbaycanın qələbəsi xarici mətbuatda





Türkiyə KİV-i:

"Azərbaycan Ordusu strateji yüksəklikləri azad edib"

Ermənistan ordusunun Azərbaycanın işğal olunmuş ərazilərindəki mövqelərindən Silahlı Qüvvələrimizə və cəbhə bölgəsindəki yaşayış məskənlərinə növbəti təxribatının qarşısının qətiyyətlə alınması barədə məlumatlar Türkiyə KİV-i tərəfindən geniş işıqlandırılıb. Belə ki, Türkiyə mediasında cəbhənin Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətlərində düşmənə sarsıdıcı cavab zərbələrinin endirilməsinə, bir neçə strateji yüksəkliyin geri alınmasına, bölgədə yaranmış gərginliklə əlaqədar beynəlxalq təşkilatların və böyük dövlətlərin mövqelərinə yer ayrılıb.

"Anadolu" agentliyi, "Hürriyyət", "Sabah" və "Milliyət" qəzetləri, o cümlədən ölkənin nüfuzlu televiziya kanalları Azərbaycan Silahlı Qüvvələrinin qoşunlarının təmas xəttinə nəzarət etməsi, şəxsi heyətin döyüş hazırlığı və ruh yüksəkliyi barədə informasiyalar yaymaqdadır.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasındakı çıxışı Türkiyə mediasının əsas mövzusuna çevrilib. "Sabah", "Hürriyyət", "Milliyət" və s. kimi nüfuzlu qəzetlər, o cümlədən "Anadolu" agentliyi və ölkənin digər aparıcı xəbər agentlikləri Azərbaycan Prezidentinin Təhlükəsizlik Şurasının iclasındakı çıxışından sitatlar veriblər. Bu barədə yayılan məlumatlarda dövlət başçısının aprelin 2-də qoşunların təmas xəttində Ermənistan tərəfinin növbəti təxribatına qarşı Azərbaycan Silahlı Qüvvələrinin verdiyi qarşılığı dəyərləndirməsi əks olunur.

Türkiyə KİV-i Azərbaycanın dövlət başçısına istinadla diqqətə çatdırır ki, işğalçı Ermənistan tərəfi sülh istəmir, 20 ildən artıq zaman kəsiyində təcavüzkar tərəf hər dəfə münaqişənin həllinə ümidlər artdıqda cəbhə xəttində təxribatçı hücumlar həyata keçirir. Məlumatlarda, həmçinin Azərbaycan tərəfinin birtərəfli qaydada cəbhə xəttində atəşkəs elan etdiyini, Ermənistan tərəfinin isə atəşkəs çağırışlarına məhəl qoymadığı bildirilir.

"The Independent":

"Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir"

Qoşunların təmas xəttində Ermənistan tərəfindən törədilən təxribatlar İngiltərədə də mətbuatın diqqət mərkəzində olub. Məsələn, "The Independent" kimi nüfuzlu mətbu orqanda cəbhə xəttində yaranan gərginlik barədə məlumatlarda təxribatın Ermənistan tərəfindən törədilməsi əksini tapıb. Eyni zamanda, qəzetdə Dağlıq Qarabağın Azərbaycanın tarixi ərazisi olması və bu əraziyə 20 ildən çoxdur ki, erməni separatçıların nəzarət etməsi kimi fikirlər yer alıb.

"BBC":

"Azərbaycan hərbi əməliyyatları birtərəfli qaydada dayandırıb"

Britaniyanın məşhur yayım şirkəti "BBC" Azərbaycan Respublikası Müdafiə Nazirliyinin cəbhə bölgəsindəki son hadisələrlə bağlı açıqlamasını şərh edib. Məqalədə qeyd edilir ki, beynəlxalq qurumların müraciətlərini nəzərə alaraq, Azərbaycan Silahlı Qüvvələri düşmənə qarşı əks-həmlə əməliyyatını və cavab tədbirlərini birtərəfli qaydada dayandırıb. Bununla yanaşı vurğulanır ki, Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin təxribatçı fəaliyyətlərindən əl çəkməyəcəyi təqdirdə hücum əməliyyatlarını davam etdirəcəyini bildirib.

Fransanın "lefigaro.fr" xəbər saytı:

"Dağlıq Qarabağ Ermənistandan yardım alan separatçı rejim tərəfindən idarə olunur"

Fransanın "lefigaro.fr" saytı aprelin 2-də baş vermiş gərgin döyüşlərdən sonra Dağlıq Qarabağda Azərbaycanın birtərəfli atəşkəs elan etdiyindən yazıb. Məqalədə bildirilir ki, Azərbaycan xoş məram göstərərək hərbi əməliyyatları dayandırmaqla bağlı birtərəfli qərar qəbul edib. Ancaq Azərbaycanın yaşayış məntəqələrinin atəşə tutulmasının dərhal dayandırılmayacağı təqdirdə işğal olunmuş ərazilərdəki erməni məntəqələrinə cavab zərbələri endiriləcək.

Məlumatda deyilir ki, 1991-ci ildən Dağlıq Qarabağ Ermənistandan hərbi və maliyyə dəstəyi alan separatçı rejim tərəfindən idarə olunur. 1994-cü ildə atəşkəs sazişi imzalansa da, son günlər Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində gərginlik artıb.

Yaponiya mətbuatı:

"Dağlıq Qarabağ Azərbaycan ərazisidir"

Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş son hadisələr Yaponiyada da medianın diqqət mərkəzindədir. Ölkənin "NHK", "FHN news", "TBS news", "Mainichi Shimbun", "NNN news", "JNN news" kimi nüfuzlu KİV-ləri cəbhə xəttində yaranan gərginlik barədə son məlumatları yayıblar. Məlumatlarda Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğu və keçmiş Sovet İttifaqının dağılması ərəfəsində Ermənistan tərəfindən işğal edildiyi vurğulanır. Azərbaycan Müdafiə Nazirliyinə istinadla təxribatın məhz Ermənistan tərəfindən törədildiyi və qarşıdurma nəticəsində 100-dən çox erməni əsgərinin məhv edildiyi bildirilir. Qeyd olunur ki, atəşkəs haqqında 1994-cü ilin mayında əldə edilmiş razılaşmadan sonra bu, tərəflər arasında baş verən ikinci belə böyük qarşıdurmadır.

Çin mətbuatı Ermənistanın Dağlıq Qarabağı və ona bitişik rayonları işğal etməsindən yazır

Çin kütləvi informasiya vasitələri də Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrə geniş yer ayırıb. Milli xəbər agentliyi "Sinxua", Çin Mərkəzi Televiziyası CCTV, rəsmi "Jenmin Jibao" qəzeti, Çin Beynəlxalq Radiosu (CRI), digər televiziya kanalları və xəbər saytları qoşunların təmas xəttində baş verən hadisələr barədə reportajlar yayımlayıblar.

Xəbərlərdə qeyd edilir ki, aprelin 2-nə keçən gecə erməni silahlı birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri 127 dəfə atəşə məruz qalıb. Azərbaycan Ordusu cavab həmlə ilə Talış kəndi ətrafındakı yüksəkliklərə, Seysulan məntəqəsinə və "Lələ təpə" adlandırılan yüksəkliklərə nəzarəti ələ keçirib. Vurğulanır ki, döyüşlərdə ermənilərə məxsus 6 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib, o cümlədən 100-dən çox şəxsi heyəti ölüb və yaralanıb.

Çin mətbuatı yazır ki, 1988-ci ildən başlanan münaqişə zamanı Ermənistan silahlı birləşmələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ona bitişik bir neçə rayonu işğal edib. 1994-cü ildə atəşkəs barədə razılıq əldə olunsa da, cəbhə xəttində mütəmadi atışmalar qeydə alınır. Münaqişənin həllinə vasitəçilik etmək üçün Rusiya, ABŞ və Fransanın həmsədrliyi ilə fəaliyyət göstərən Minsk qrupu formatında aparılan danışıqlar heç bir nəticə verməyib.

Misir mətbuatı:

"Atəşkəs Ermənistan tərəfindən məqsədli şəkildə pozulur"

Aprelin 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycanın mövqelərinin və yaşayış məntəqələrinin düşmən tərəfindən intensiv atəşə məruz qalması barədə Misirdəki səfirliyimizin bəyanatı bu ölkənin kütləvi informasiya vasitələrində geniş şəkildə yayılıb.

Bəyanatda atəşkəsin Ermənistan tərəfindən məqsədli şəkildə pozulduğu və təcavüzkar dövlətin daha çox itkilər verdiyi bildirilir. Həmçinin BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin indiyədək yerinə yetirilmədiyi və sülh danışıqlarının Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe səbəbindən heç bir nəticə vermədiyi vurğulanır. Bəyanatda toqquşmaların Azərbaycanın Kəlbəcər rayonunun Ermənistan tərəfindən işğal olunduğu günə təsadüf etdiyi, erməni silahlı qüvvələrinin bu dəfə atəşkəsi pozmasının sırf təxribat xarakterli olduğu xüsusilə qeyd edilib.

Estoniyanın "uudised.err.ee" portalı:

"İlham Əliyev hərbi əməliyyatı dövlətin böyük qələbəsi adlandırıb"

Estoniyanın "uudised.err.ee" internet xəbər portalında isə "İlham Əliyev hərbi əməliyyatı dövlətin böyük qələbəsi adlandırıb" sərlövhəli məqalə yerləşdirilib. Məqalədə Azərbaycan dövləti başçısının Təhlükəsizlik Şurasının iclasında çıxışından sitatlar gətirilib. Əsas diqqət Prezident İlham Əliyevin "Ermənistan sülh istəmir. Ermənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin" sözləri üzərində cəmləşdirilib.

Estoniyanın "postimees.ee" portalı xəbər verir ki, Azərbaycan sülhsevərliyi və beynəlxalq təşkilatların təkidli müraciətlərini əsas götürərək cavab əks-həmlə əməliyyatlarını birtərəfli qaydada dayandırır. Bununla belə, Azərbaycan Ermənistan tərəfinin atəşkəsi dəstəkləməyəcəyi təqdirdə hərbi əməliyyatlara yenidən başlayacağını vəd edir. Nəşr yazır: "Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, ölkənin Silahlı Qüvvələrinin təmas xəttində hərbi əməliyyatı böyük qələbədir".

"France 24":

"Erməni hərbçiləri ölmək istəmirlərsə, bizim torpaqlardan çıxıb getsinlər"

"France 24" televiziya kanalında Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttindəki gərginliklə bağlı Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyovun müsahibəsi yayımlanıb. Reportajda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Erməni hərbçiləri ölmək istəmirlərsə, bizim torpaqlardan çıxıb getsinlər" fikri səsləndirilib.

Aparıcının şərhindən sonra səfir Elçin Əmirbəyov Dağlıq Qarabağın tarixi, ermənilərin bu ərazilərə köçürülməsi haqqında məlumat verərək son günlər qoşunların təmas xəttində yaranan gərginlikdən, eləcə də ermənilərin Azərbaycan ərazilərində apardıqları etnik təmizləmə siyasətindən, xalqımıza qarşı törətdikləri Xocalı soyqırımından danışıb. Ermənistanın hazırkı status-kvonu saxlamaqda maraqlı olduğunu diqqətə çatdıran Elçin Əmirbəyov danışıqlar prosesində Ermənistanın qeyri-konstruktiv mövqe tutduğunu bildirib. O, bu gün Azərbaycan ərazilərinin işğalının kifayət qədər işıqlandırılmadığına təəssüfləndiyini bildirərək ATƏT-in Minsk qrupu həmsədrlərinin hazırkı status-kvonun qəbuledilməz olduğunu dəfələrlə qeyd etdiklərini xatırladıb.

Səfir deyib: "Aprelin 2-də Kəlbəcər rayonunun işğalının 23-cü ildönümündə Ermənistanın növbəti təxribat yaratması, dinc əhalini hədəf seçməsi bir daha göstərir ki, bu ölkənin əsas məqsədi bu ərazidə yaşayan insanları qorxutmaq, onları təşvişə salmaqdır. Ermənilər ərazilərimizin 20 faizini işğal edəndə apardıqları siyasəti yenidən təkrar edirlər".

Dağlıq Qarabağda azərbaycanlı və erməni icmalarının əvvəllər birgə yaşadığını qeyd edən diplomat Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən geri çəkilməyəcəyi təqdirdə sülhdən danışmağın əbəs olduğunu bildirib.

"De.sputniknews.com":

"Ermənistan silahlı birləşmələrini işğal zonasından çıxarmalıdır"

Almaniyanın "de.sputniknews.com" nəşrində Azərbaycan ərazilərinin işğal edilmiş zonasında Ermənistanın son təxribatları ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı haqqında məlumat dərc olunub. Məlumatda bildirilir ki, Bakı Azərbaycanın yaşayış məntəqələrini artilleriya atəşinə tutmuş Ermənistanın hərəkətlərinin pislənməsini beynəlxalq birlikdən tələb edir. Nəşr yazır: "Münaqişəni sülh yolu ilə həll etmək üçün Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərinə uyğun olaraq öz silahlı birləşmələrini işğal zonasından çıxarmalıdır". Məlumatda o da vurğulanır ki, ATƏT-in Minsk qrupunun vasitəçilərinin dəfələrlə vurğuladıqları kimi, indiki status-kvo vəziyyəti yolverilməzdir.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Aprelin 2-də cəbhə xəttində baş verən döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qüdrəti ilə bağlı deyilənləri əyani şəkildə təsdiq etdi. Ordumuz elə ilk həmlədəcə erməni hərbi birləşmələrinin mövqelərini darmadağın edərək onu geri çəkilməyə məcbur etdi. Düşmənin təxribatına qarşı dərhal həyata keçirilən bu hərbi əməliyyatlar zamanı Silahlı Qüvvələrimiz olduqca mühüm strateji əhəmiyyət kəsb edən yaşayış məntəqələrini və yüksəklikləri işğaldan azad etdi.

Təmas xəttində baş verənlər xarici mətbuatın da diqqət mərkəzindədir. Ermənistan tərəfinin dezinformasiyalarına baxmayaraq, nüfuzlu xarici KİV-də həm Azərbaycan Ordusunun erməni təxribatının qarşısını alması, həm də Ermənistanın işğalçılıq siyasəti ilə bağlı obyektiv informasiyalar yer alıb.

"Assoşieyted Press":

"Ermənistanın 100-dən çox əsgəri öldürülüb, 6 tankı, 15 artilleriya qurğusu məhv edilib"

"Assoşieyted Press" beynəlxalq informasiya agentliyi cəbhədə baş verənlərlə bağlı yaydığı informasiyada əksini tapan faktlarda təxribatın məhz Ermənistan tərəfindən törədilməsi açıq-aydın görünür. Xəbərdə bildirilir ki, döyüşlər zamanı Ermənistan tərəfinin 100-dən çox əsgəri öldürülüb və yaralanıb, 6 tankı və 15 artilleriya qurğusu məhv edilib. Agentlik vurğulayır ki, Azərbaycan tərəfi itkilərini açıqlasa da, Ermənistan tərəfi bu barədə rəsmi məlumat yaymır.

Qeyd edək ki, bu xəbər "Assoşieyted Press"ə istinadla "ABC News", "Washington Times", "Washington Post", "NBC", "Fox 13", "New York Times", "Deutsche Welle" kimi nüfuzlu informasiya mənbələrində və bir çox ölkələrə məxsus saytlarda yerləşdirilib.